# Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin

# 2017-2020-ci illər üçün

# STRATEJİ PLANI

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin (bundan sonra Nazirlik) 7 mart 2016-cı il tarixli F-26 nömrəli əmrinə əsasən hazırlanmış Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin 2017-2020-ci illər üçün Strateji Planı daxili və xarici amillərin təhlili əsasında, habelə ilkin strateji planın hədəflərinə nail olma səviyyəsi nəzərə alınmaqla gələcək hədəflərin müəyyən edilməsi və bu hədəflərə çatmaq üçün mövcud potensialdan istifadə istiqamətlərini müəyyən edən sənəddir.

Strateji plan Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinə, İqtisadiyyat Nazirliyinin Əsasnaməsinə, Nazirliyin ilkin strateji planı və həmin plana uyğun olaraq 2014-2016-cı illər ərzində həyata keçirilmiş fəaliyyət proqramına əsasən hazırlanmışdır.

Hazırlanmış Strateji plan dünya və ölkə iqtisadiyyatının real vəziyyətinə uyğun olaraq inkişafyönümlü xarakter daşıyır və ümumi hədəfə bağlı olan uzunmüddətli məqsədlərin həll edilməsinə, iqtisadiyyatın yenidən balanslaşdırılması vasitəsilə rəqabətqabiliyyətli, idxalı əvəz edən və ixraca əsaslanan iqtisadiyyata keçidə yönəldilib. Sənəd ölkənin sosial–iqtisadi inkişaf prioritetlərini, onların daxili və xarici şərtlərinin, tendensiyalarının müəyyən edilməsini özündə əks etdirir, dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsi üçün kompleks tədbirləri əhatə edir. Strateji plan qarşıya qoyulmuş hədəflərə nail olmaq üçün dövlət, biznes və ictimaiyyətlə planlı fəaliyyətin koordinasiyasını, habelə strateji nəzarətin yollarını açıqlayır.

## 1. Missiya

Dayanıqlı inkişafa nail olmaq üçün səmərəli milli iqtisadiyyatın formalaşdırılması: qeyri-neft sektorunun rəqabətqabiliyyətliliyinin artırılması və davamlı inkişaf etdirilməsi, qeyri-neft məhsullarının ixracının dəstəklənməsi, əlverişli investisiya mühitinin yaradılması, sahibkarlığın inkişafı.

**2. Baxış**

Ölkənin davamlı inkişafı naminə səlahiyyətlərindən dolğun istifadə edən, peşəkarlığa əsaslanan, sosial-iqtisadi inkişafın təmin edilməsi üzrə həyata keçirilən siyasət sahəsində əsas təşəbbüskarlıq mənbəyinə çevrilmək.

**3. Nazirlik üzrə güclü tərəflər:**

- ✓ ölkənin iqtisadi və sosial siyasətinin həyata keçirilməsi ilə əlaqəli digər təşkilat və layihələrdə önəmli səs hüququnun olması;
- ✓ yüksək bilik və bacarığa malik olan kadrların mövcud olması, kadr siyasətinin daim təkmilləşdirilməsi;
- ✓ qarşıya qoyulmuş vəzifələrin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi məqsədilə dəqiq müəyyənləşdirilmiş daxili inzibati mexanizmdən istifadə olunması;
- ✓ səlahiyyətləri çərçivəsində digər nazirlik və qurumlarla sıx və səmərəli əlaqələrin mövcudluğu;
- ✓ mövcud iqtisadi şəraitdə dövlət investisiyalarının azalması fonunda özəl sektorun investisiyalarının artırılmasının Nazirlik tərəfindən dəstəklənməsi;
- ✓ dövlətlərarası iqtisadi əlaqələrin həyata keçirilməsi, inkişafı sahəsində fəal tədbirlər həyata keçirən əsas əlaqələndirici qurum olması;
- ✓ təkmilləşdirilmiş elektron sənəd dövriyyəsinin tətbiqi.

**4. İmkanlar və meyillər**

Azərbaycan Respublikasının strateji cəhətdən əhəmiyyətli coğrafi mövqedə yerləşməsi, makroiqtisadi və ictimai-siyasi sabitliyin qorunub saxlanılması, həmçinin sosial sahələrin daim dövlətin diqqət mərkəzində olması ölkə iqtisadiyyatının güclü tərəflərini təşkil etməklə yanaşı, gələcək dövr üçün zəmin ola biləcək əhəmiyyətli iqtisadi artım potensialı yaratmışdır. Sahibkarlığın inkişafı, ixracın stimullaşdırılması, iqtisadiyyatın şaxələndirilməsi və əlverişli investisiya mühitinin yaradılmasına daim dövlət dəstəyi olmuşdur. Enerji və ərzaq təhlükəsizliyi üzrə özünü təminetmə, strateji valyuta ehtiyatları nəzərə alınmaqla dövlət borcunun yüksək olmaması və işsizliyin qənaətbəxş səviyyədə olması, ölkənin mühüm enerji və nəqliyyat dəhlizi üzrə qlobal layihələrdə uğurlu iştirak etməsinə və beynəlxalq kredit təşkilatlarının ölkəyə marağının artmasına gətirib çıxarmışdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılması, vətəndaşlara və biznes subyektlərə dövlət xidmətlərinin göstərilməsi sahəsində operativliyi, şəffaflığı və effektivliyi artırmışdır.

İqtisadiyyatımızın yuxarıda qeyd olunmuş güclü tərəfləri ilə yanaşı, bir sıra məsələlər, o cümlədən iqtisadiyyatın qeyri neft-qaz gəlirlərinin artırılması, istehsal sahələrinin idxaldan asılılığın azaldılması, qeyri-neft ixracının artırılması, maliyyə-bank sektorunun sağlamlaşdırılması və iqtisadi subyektlərin maliyyə resurslarına çıxış imkanlarının artırılması, həmçinin korporativ idarəetmə səviyyəsinin yaxşılaşdırılması, iqtisadi rayonların inkişafında əhəmiyyətli olan proporsional prinsiplərin genişləndirilməsi, insan kapitalının inkişafı qarşıda duran prioritet məsələlərdəndir. Bundan başqa, xarici şokların absorbsiya imkanlarının, xidmət ixracının təşviqinin, innovasiya infrastrukturları arasında əlaqələndirmələrin və inkişafın gücləndirilməsi istiqamətində atılan addımlar daxili iqtisadi proseslərdən asılı olmayan risklər nəticəsində yarana biləcək proseslərin qarşısını ala bilər.

Bununla yanaşı, respublikamız qlobal dəyər zəncirinə inteqrasiya, iqtisadiyyatın şaxələndirilməsi, sahibkarlara əlverişli biznes mühitinin yaradılması, dövlət mülkiyyətində olan strateji əhəmiyyət daşıyan və ortamüddətli dövrdə dövlət mülkiyyətində saxlanılması məqsədəmüvafiq hesab olunan müəssisələr istisna olmaqla digər subyektlərin özəlləşdirilməsində həm yerli, həm də xarici sahibkarların iştirakı üçün əlverişli şərait yaratmaqla, özəl investisiya qoyuluşlarının təşviq edilməsi, məşğulluqda qeyri-dövlət sektorunun rolunun daha da artması, prioritet sahələr üzrə inkişaf imkanlarının olması və regionların konkret inkişaf potensialının reallaşması kimi imkanlarla zəngindir.

## 5. Əsas məqsədlər

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası və Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri üzrə müəyyən edilmiş hədəflərin həyata keçirilməsi, o cümlədən qeyri-neft sektorunun inkişafı və qeyri-neft ixracının artırılması, əlverişli biznes mühitin formalaşdırılması, səmərəli makroiqtisadi tənzimləmənin təmin edilməsi, iqtisadiyyata investisiya qoyuluşlarının cəlb edilməsi, xarici iqtisadi əlaqələrin genişləndirilməsi qarşıda duran əsas məqsədlərdəndir.

## 6. Strateji Hədəflər və fəaliyyətlər

**Strateji Hədəf 1: Makroiqtisadi tənzimləmə sisteminin təkmilləşdirilməsinin davam etdirilməsi:**

**1.1 Makroiqtisadi proqnozlaşdırmanın təkmilləşdirilməsi**

Son illərdə dünya bazarının konyukturasının kəskin dəyişməsi, ölkə iqtisadiyyatına təsir edən xarici şoklar, həyata keçirilən kəskin devalvasiyalar makroiqtisadi proqnozlaşdırmanın əhəmiyyətini daha da artırmış və bu prosesin təkmilləşdirilməsini zəruri etmişdir. Bundan əlavə milli valyutanın tamamilə yeni məzənnə rejiminə keçməsi, əvvəlki dövrlərdə üstünlük təşkil edən dövlət investisiyalarının özəl investisiyalarla əvəz olunması, eyni zamanda gələcək iqtisadi artımın əsas təkanverici qüvvəsinin qeyri-neft sektoru olması yeni çağırışları meydana çıxarmışdır.

Nazirliyin ilk Strateji Planına əsaslanaraq mövcud makroiqtisadi proqnozlaşdırma modelinin daha da təkmilləşdirilməsi həyata keçirilmiş, xarici ekspertlərin cəlb edilməsi ilə yeni modellər hazırlanmışdır. Bu modellərin beynəlxalq qurumlarla sıx əməkdaşlıq etməklə təkmilləşdirilməsinin davam etdirilməsi, yeni fiskal qaydaların tətbiqi ilə dayanıqlı inkişafı nəzərdə tutan proqnoz göstəricilərin ssenarilər üzrə işlənməsi nəzərdə tutulur.

**1.2 Makroiqtisadi inkişafın monitorinq sisteminin təkmilləşdirilməsi**

Dayanıqlı inkişaf diaqnostikası sisteminin yaradılması istiqamətində daha təkmil makroiqtisadi məlumat bazasının yaradılmasına başlanılmışdır.

Xarici iqtisadi konyukturda qeyri-müəyyənliklərin, habelə digər amillərin ölkə iqtisadiyyatına təsirlərinin artması fonunda mövcud inkişaf meyillərinin monitorinqinin aparılmasının vacibliyi artmışdır. Makroiqtisadi monitorinqin aparılması üçün operativ şəkildə informasiya təminatının təmin edilməsi məqsədilə müvafiq dövlət orqanları ilə məlumat mübadiləsinin və göstəricilər bazasının təkmilləşdirilməsi və sistemləşdirilməsi həyata keçiriləçəkdir. Həmçinin məlumat bazasının proqram təminatı ilə təchiz olunma imkanları beynəlxalq ekspertlər cəlb olunmaqla araşdırılacaqdır.

**Strateji Hədəf 2: Qeyri-neft sektorunun inkişafının davam etdirilməsi:**

**2.1 Qeyri-neft sektorunun inkişafı**

İlk Strateji Plan dövrü ərzində rəqabətqabiliyyətli qeyri-neft məhsullarının istehsal və ixrac imkanları artırılmış, ölkədə biznes mühitinin yaxşılaşdırılması, investisiya fəaliyyətinin genişləndirilməsi, sənaye istehsalının artırılması məqsədi ilə investisiya

təşviqi və qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına ixrac təşviqinin ödənilməsi mexanizmləri yaradılmış, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığı təmin edilmişdir. İqtisadiyyatın dinamik və intensiv inkişafına əlverişli şəraitin yaradılması, biznes mühitini qiymətləndirən müvafiq beynəlxalq hesabatlarda ölkəmizin mövqeyinin yaxşılaşdırılması ilə əlaqədar işlərin, o cümlədən qeyri-neft sektorunun inkişafı üçün daha əlverişli biznes mühitinin formalaşdırılması istiqamətində tədbirlərin davam etdirilməsi, resurslardan məqsədyönlü və səmərəli istifadə edilməsi məqsədilə lisenziyalar və icazələr portalının yaradılması, "susmaqla razılıq" və "bir pəncərə" prinsiplərinin tətbiqi, sahibkarların işini yüngülləşdirən digər mütərəqqi mexanizmlərin və stimullaşdırıcı tədbirlərin tətbiqinin genişləndirilməsi, regionların davamlı inkişafının təmin edilməsi nəzərdə tutulur.

**2.2 Sənaye istehsalının genişləndirilməsi**

Ölkədə rəqabət qabiliyyətli sənaye istehsalının genişləndirilməsi, xidmətlərin göstərilməsi üçün münbit şəraitin yaradılması və bu sahədə sahibkarlığın dəstəklənməsi əsasında klasterlərin yaradılması istiqamətində görülən tədbirlər və "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nın sistemli icrası yeni sənayeləşmə mərhələsinin möhkəm təməlinin qoyuluşunu təmin etmişdir. Növbəti illərdə ölkədə sənayeləşmə prosesinin daha da inkişaf etdirilməsi, xüsusilə də qeyri-neft sektorunda yerli xammal əsasında işləyəcək yeni müəssisələrin yaradılmasının dəstəklənməsi davam etdiriləcəkdir. Sənaye istehsalının genişləndirilməsi istiqamətində əsas vəzifə texnoloji inkişafın təmin edilməsi, müasir texnologiyaya və yerli xammala əsaslanan rəqabətqabiliyyətli sənaye istehsalının yaradılması təşkil edəcəkdir. Bununla yanaşı, hazırda mövcud olan sənaye müəssisələrində əlavə istehsal güclərinin yaradılması və onların modernləşdirilməsinin dəstəklənməsi davam etdiriləcəkdir. Bu prosesə "Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin və Sahibkarlığa Kömək Milli Fondunun yaxından cəlb olunması və digər adekvat tədbirlərin görülməsi üzrə davamlı fəaliyyətin həyata keçirilməsi nəzərdə tutulur.

**Strateji Hədəf 3: Ölkənin rəqabətqabiliyyətli məhsul ixracının stimullaşdırılması**

**3.1 Yerli məhsulların xarici bazarlara çıxarılması**

İlk Strateji Planın icrası dövrü ərzində yerli sahibkarlar tərəfindən yüksək keyfiyyətli məhsulların xarici bazarlara çıxarılması və onların müxtəlif beynəlxalq sərgilərdə iştirakı üçün imkanlar yaradılmış, "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqi, ixrac

məlumat bazasının formalaşdırılması, potensial ixraç bazarlarında logistika mərkəzlərinin yaradılması, qeyri-neft məhsullarına ixrac təşviqinin ödənilməsinə başlanılmışdır. Yeni mexanizmlərin tətbiqi Azərbaycanın ixrac potensialının genışləndirilməsinə, yeni bazarlara çıxışın təmin olunmasına, qeyri-neft ixracının davamlı olaraq artırılmasına təkan verməklə ümumilikdə iqtisadiyyatın diversifikasiyasının sürətləndirilməsində əhəmiyyətli rol oynayacaqdır. Növbəti illərdə ölkədə qeyri-neft məhsullarının ixrac potensialının daha da artırılması, kənd təsərrüfatı və sənaye sahəsində fəaliyyət göstərən sahibkarlar tərəfindən istehsal edilən məhsullar üçün yeni bazarların tapılmasının stimullaşdırılması, yeni bazarlara ixrac imkanları və bu imkanlardan istifadə edilməsi istiqamətində işlərin davam etdirilməsi, müəssisələrin xarici iqtisadi əlaqələrinin genişləndirilməsi, yerli məhsulların beynəlxalq sərgilərə çıxarılmasına dəstək tədbirlərinin davam etdirilməsi, həmçinin xarici bazarlarda ticarət evlərinin açılması, ixracatçıların birlik və assosiasiyalarının yaradılmasının dəstəklənməsi nəzərdə tutulur.

### 3.2 Ölkənin keyfiyyətli məhsul ixracatçısı imicinin formalaşdırılması

İxrac olunan rəqabətqabiliyyətli məhsulların beynəlxalq bazarlarda tanıdılması məqsədilə yerli brendlərin yaradılması, inkişaf etdirilməsi, hədəf bazarlarda dəstəklənməsi və xaricdə, xüsusilə də MDB bazarlarında Azərbaycan məhsulunun imicinin yüksəldilməsi zəruridir. Bundan əlavə, xarici ölkələrə ixrac missiyalarının təşkil edilməsi, xarici bazarların araşdırılması, “Made in Azerbaijan” brendinin xarici bazarlarda təşviqi, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patent alması, habelə görülən işlərə dair məlumatların yerli və beynəlxalq KİV-də işıqlandırılması üçün Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) tərəfindən tədbirlərin görülməsi, idxalın əvəzlənməsi fəaliyyətinin dəstəklənməsi nəzərdə tutulur.

### 3.3 Beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi

İxraca əsaslanan iqtisadiyyatın yaradılması və istehsal olunan rəqabətqabiliyyətli məhsulların ixracı üçün etibarlı bazarların tapılması, eləcə də mövcud bazarlarda ticarət payının artırılmasının dəstəklənməsi ilə əlaqədar beynəlxalq əməkdaşlığın genişləndirilməsi, bu əməkdaşlığa dair siyasətin təkmilləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Növbəti illərdə xarici investisiyalar və qeyri-neft ixracının təşviqi strategiyası çərçivəsində xarici donorlarla birgə əməkdaşlığa dair işlərin davam etdirilməsi

planlaşdırılır. Bu istiqamətdə görülən işləri daha da genişləndirmək məqsədilə Nazirliyin iştirak etdiyi hökumətlərarası komissiyaların səmərəli fəaliyyətinin təşkili, o cümlədən ölkə iqtisadiyyatının inkişaf tələblərinə uyğun çevikliyinin daha da artırılması nəzərdə tutulur. Ölkə iqtisadiyyatının qlobal iqtisadiyyata inteqrasiyası, mövcud qlobal çağırışların cavablandırılması məqsədilə beynəlxalq iqtisadi təşkilatlarla əməkdaşlıq daha da genişləndiriləcəkdir.

**Strateji Hədəf 4: İqtisadiyyatın prioritet sahələrinə investisiya qoyuluşlarının stimullaşdırılması**

**4.1 Xarici investisiyaların təşviqi**

2014-2016-cı illərdə yerli və xarici investisiyaların cəlb edilməsi üçün stimullaşdırıcı mexanizmlərin tətbiqi məqsədilə qanunvericilikdə gəlir vergisi, mənfəət vergisi, əlavə dəyər vergisinin, habelə dövlət gömrük rüsumlarının faiz dərəcələrinin azaldılması və ya ləğvini nəzərdə tutan müvafiq dəyişikliklər aparılmış və tətbiqinə başlanılmışdır. Növbəti illərdə Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunda prioritet sahələrə xarici investisiyaların cəlb edilməsi, ölkənin biznes-investisiya mühitinin təşviq mexanizmləri, o cümlədən, investisiya təşviq sənədinin, sənaye parklarına əlavə güzəşt və imtiyazların tətbiqi, birbaşa xarici investisiya üçün investorların cəlb olunması işləri davam etdiriləcəkdir.

Bununla yanaşı, hədəf ölkələrlə sərmayələrin qarşılıqlı qorunması və təşviqi Sazişlərinin icrası və yenilərinin imzalanması istiqamətində müvafiq tədbirlər həyata keçiriləcəkdir.

**4.2 Daxili investisiyaların prioritetləşdirilməsi**

Dövlət investisiyalarının prioritetləşdirilməsi daha da təkmilləşdirilərək səmərəliliyi artırılacaq, nəqliyyat, su, iri infrastruktur layihələri başa çatdırılacaq, özəl investisiyaları dəstəkləyən məqsədyönlü infrastruktur layihələri icra olunacaqdır. Özəl investisiyaların təşviq edilməsi üçün həyata keçirilən investisiya təşviq mexanizmi qeyri-neft sektoru ilə yanaşı prioritet xidmət sahələrinə, xüsusilə turizmin inkişafına yönəldilməsi təmin ediləcəkdir. Dövlət-özəl əməkdaşlığı çərçivəsində infrastruktur layihələrinin həyata keçirilməsi imkanları araşdırılacaqdır.

**Strateji Hədəf 5: Tranzit potensialının reallaşdırılması üzrə tədbirlərin davam etdirilməsi**

Ölkədə tranzit potensialının artırılması məqsədilə tranzit infrastrukturunun, o cümlədən dövlət dəstəyi ilə həyata keçirilən regional infrastruktur layihələrinın tamamlanması üzrə işlər davam etdiriləcək, Nazirlik tərəfindən Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası və Şuranın Katibliyi vasitəsilə əlverişli şərtlərlə tranzit daşımalarının təmin edilməsi üzrə tədbirlər görüləcəkdir. Belə ki, tranzit yüklərin dəmir yolu və dəniz nəqliyyatı ilə daşınması, dəniz limanları və terminalları vasitəsilə daşınılması xidmətləri üzrə tariflərin tənzimlənməsi, ölkə ərazisindən keçən nəqliyyat dəhlizlərinin təşviqi, tranzit yükdaşımaların inkişafına maneələrin aradan qaldırılması ilə bağlı tədbirlərin görülməsi planlaşdırılır. Tranzit yükdaşımaların həcminin daha da artırılması məqsədilə ipək yolu ölkələri ilə səmərəli əməkdaşlıq genişləndiriləcəkdir.

**Strateji Hədəf 6: "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının icrası ilə bağlı işlərin davam etdirilməsi və Yol Xəritələrinin icrasının təmin edilməsi**

**6.1 İnkişaf Konsepsiyasının əlaqələndirilməsi**

Son üç il ərzində "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının həyata keçirilməsi üzrə 48 müvafiq dövlət sənədləri - strategiyalar, dövlət proqramları və s. təsdiq edilmiş və icrasına başlanılmışdır. Uzunmüddətli dövrdə ölkədə, bütün sahələrdə həyata keçiriləcək inkişaf siyasətinin əsas strateji hədəflərini özündə ehtiva edən İnkişaf Konsepsiyasının reallaşdırılması ilə əlaqədar təsdiq edilmiş Milli Fəaliyyət Qrupu tərəfindən müvafiq dövlət proqramlarının və digər fəaliyyət sənədlərinin hazırlanmasında lazımi prosedurların sürətləndirilməsi və digər dövlət qurumlarının müvafiq sənəd layihələrinin hazırlanması istiqamətində koordinasiya funksiyasının daha səmərəli həyata keçirilməsi nəzərdə tutulur.

**6.2 "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri"nin icrası**

"Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri" təsdiq edilmiş, neft və qaz sənayesi, ağır sənaye və maşınqayırma, kənd təsərrüfatı, mənzil-kommunal, sahibkarlıq, turizm, təhsil, telekommunikasiya və informasiya texnologiyaları, logistika və ticarət, eləcə də maliyyə xidmətləri sahələrində qəbul olunmuş strateji yol

xəritələrinin icrasında Nazirliyə mühüm yer ayrılmış, əhəmiyyətli vəzifələr həvalə olunmuşdur. "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri"nin Nazirlik üzrə səmərəli icrasının təmin edilməsi məqsədilə müvafiq icra mexanizmi yaradılacaqdır. Nazirliyin əsas icraçı olduğu tədbirlərin vaxtında yerinə yetirilməsi üçün müvafiq işçi qrupları yaradılaraq, əlaqəli fəaliyyət təşkil ediləcək və görülən işlər barədə hesabatlılıq təmin ediləcəkdir.

**Strateji Hədəf 7: Dünyamızın tranformasiyası: 2030-cu ilədək Dayanıqlı İnkişaf sahəsində gündəlikdən irəli gələn öhdəliklərin icrasının səmərəli əlaqələndirilməsi məqsədilə Katibliyin fəaliyyətinin təşkili**

**7.1 Milli prioritetlərin və göstəricilərin müəyyən edilməsi**

Minilliyin Bəyannaməsinə qoşulmuş ölkəmizdə yoxsulluqla mübarizə sahəsində kompleks tədbirlərin həyata keçirilməsi məqsədilə "2003 - 2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı", eləcə də "2008 - 2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" Nazirlik tərəfindən hazırlanaraq icrasının əlaqələndirilməsi təmin olunmuşdur.

2030-cu ilədək BMT tərəfindən qəbul edilmiş Dayanıqlı İnkişaf Məqsədlərindən irəli gələn öhdəliklərlə bağlı dövlət orqanlarının üzərinə düşən vəzifələrin icrasının əlaqələndirilməsi məqsədilə yaradılmış Milli Əlaqələndirmə Şurasının fəaliyyətinin təmin olunması üçün Nazirliyə katiblik funksiyası tapşırılmışdır. Bununla əlaqədar, Nazirlik tərəfindən Şuranın Katibliyi formalaşdırılacaq, təşkilatlararası sosial, iqtisadi və ekoloji məsələlər üzrə işçi qruplarının fəaliyyəti əlaqələndiriləcək, ölkənin ilk könüllü hesabatı hazırlanacaq və Yüksək Səviyyəli Foruma təqdim olunması təmin olunacaqdır.

2030-cu ilədək Azərbaycan üçün əhəmiyyət kəsb edən qlobal məqsəd və hədəflərə uyğun milli prioritetlər və onlara dair göstəricilər müəyyən ediləcək, Dayanıqlı inkişaf məqsəd və hədəflərin milli strategiyalar, habelə dövlət proqramları ilə uzlaşdırılmasının təmin edilməsi üzrə dövlət qurumlarının fəaliyyəti əlaqələndiriləcək, beynəlxalq ekspertlər də cəlb olunmaqla metodiki və praktiki dəstək təmin ediləcəkdir.

**7.2 Dayanıqlı İnkişaf Məqsədləri üzrə məlumatlılığın təmin edilməsi**

Dayanıqlı İnkişaf Məqsədləri barədə görülmüş işlər, həmçinin qlobal məqsəd və hədəflərə uyğun milli prioritetlərin və onlara dair göstəricilərin müəyyən edilməsi, ölkədə sosial-iqtisadi sahələri əhatə edən dövlət proqramlarının və strategiyaların Dayanıqlı İnkişaf Məqsədləri ilə uzlaşdırılmasının təmin edilməsinə dair illik hesabatların hazırlanıb Azərbaycan Respublikası Prezidentinə təqdim edilməsi və ictimaiyyətin məlumatlandırılması nəzərdə tutulur. Milli Əlaqələndirmə Şurası və Birləşmiş Millətlər Təşkilatının Azərbaycan Nümayəndəliyi ilə birlikdə Azərbaycanda DİM-lərlə bağlı məqsəd və hədəflər, habelə onların icrası barədə geniş məlumatlandırma və ictimai iştirak üzrə tədbirlər görüləcəkdir.

**Strateji Hədəf 8: İnsan kapitalının gücləndirilməsi**

**8.1 "İnsan resurslarının inkişafı" Konsepsiyasının hazırlanması**

Qarşıda duran vəzifələrin icrası üçün İqtisadiyyat Nazirliyində "İnsan resurslarının inkişafı" Konsepsiyasının hazırlanması planlaşdırılır.

Konsepsiyanın əsas fəaliyyət istiqamətlərini: daimi tədris proqramları əsasında peşəkar səviyyənin artırılması, fəaliyyətin obyektiv meyarlar əsasında qiymətləndirlməsi və işçilərin fəaliyyət nəticələrinə görə həvəsləndirilməsi, kadrlar haqqında informasiya bazasının formalaşdırılması və onun əsasında insan resurslarının idarə edilməsi təşkil edəcəkdir.

Növbəti illərdə nazirliyin aparatının bölmələri, digər strukturları və tabeliyindəki qurumları ilə birlikdə insan resurslarına dair normativ bazanın yaradılması, ayrı-ayrı təşkilatlar, qeyri-hökumət və beynəlxalq qurumlarla əməkdaşlığın həyata keçirilməsi nəzərdə tutulur.

**8.2 Nazirliyin əməkdaşlarının bilik və bacarıqlarının artırılması**

Nazirliyin kadr potensialının artırılması məqsədilə aidiyyəti əməkdaşların ölkədə və xaricdə təşkil olunan ixtisasartırma tədbirlərinə, eləcə də təcrübə mübadiləsi və beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində keçirilən təlim proqramlarına cəlb edilməsi davam etdiriləcəkdir.

Prioritet hədəflərə çatmaq üçün Nazirlik tərəfindən bütün kateqoriyalardan olan kadrların fasiləsiz təhsil yolu ilə əlavə təhsil və peşəkarlıq səviyyəsinin inkişaf etdirilməsi sahəsində aparılan işlərin əlaqələndirilməsi və tənzimlənməsi, həmçinin əlavə təhsilin

istiqamətləri üzrə fəaliyyətlərin planlaşdırılması, idarə olunması və keyfiyyətinin yüksəldilməsi işinin təşkili nəzərdə tutulur.

**Strateji Hədəf 9: İnstitusional potensialın gücləndirilməsi**

**9.1 Vətəndaş müraciətlərinin cavablandırılması**

Elektronlaşmanın sürətlə inkişaf etdiyi hazırki dövrdə dövlət-özəl, dövlət-vətəndaş münasibətlərinin səmərəliliyinin artırılması, müraciət formalarının təkmilləşdirilməsi və sadələşdirilməsi, elektron vasitələrin istifadəsinin genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu günə qədər Nazirlik tərəfindən vətəndaşlara 7 interaktiv və 21 informativ elektron xidməti, Nazirliyin 195-2 Çağrı Mərkəzinin fəaliyyəti təmin edilmişdir. Elektron hökumətin yaradılması çərçivəsində informasiya-kommunikasiya texnologiyalarının imkanlarından istifadə edərək müvafiq münasibətlərin təkmilləşdirilməsi, elektron xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması, o cümlədən vətəndaş müraciətlərinin tənzimlənməsində daha çevik mexanizmlərin yaradılması davam etdiriləcəkdir.

**9.2 Vahid məlumat bazasının yaradılması**

Struktur bölmələri arasında əlaqələrin, qarşılıqlı əməkdaşlığın, o cümlədən məlumat mübadiləsinin dərinləşdirilməsi məqsədilə yeni işçilər üçün sistemləşdirilmiş təlim proqramının, habelə elektron sənəd dövriyyəsi üzrə peşəkar təlimlərin keçirilməsi və strukturlaşdırılmış daxili məsləhətləşmə prosesinin tətbiqi, iş planları və vacib tapşırıqların icrasına nəzarət sisteminin təkmilləşdirilməsi, görülən işlər haqqında məlumat bazası və icraçılara dair portalın (interaktiv xəritənin) yaradılması nəzərdə tutulur.

**9.3 Nazirliyin strukturlarının səmərəli fəaliyyətinin təşkili**

Növbəti illər ərzində Azərbaycan Respublikasının Prezidenti və Hökuməti tərəfindən imzalanmış Fərman və Sərəncamların, strateji sənədlərin, eləcə də Nazirliyin Strateji Planının vaxtında və uğurla həyata keçirilməsi Nazirliyin bütün mövcud resurslarının bu istiqamətlərdə səfərbər edilməsinə zərurət yaradır. Nazirliyin strateji hədəflərinə nail olunması və gözlənilən nəticələrin əldə edilməsi Nazirliyin bütün strukturlarının vahid komanda şəklində fəaliyyət göstərməsini şərtləndirir. Strateji Planda əks olunan istiqamətlər əsas götürülərək, bölmələr tərəfindən müvafiq planların hazırlanaraq tətbiq

edilməsi davam etdiriləcək, habelə Nazirliyin mərkəzi aparatında strateji məqsəd və fəaliyyətlər müvafiq iş planlarına daxil edilməklə sistemli icrası təmin olunacaqdır.

### Strateji Hədəf 10: Korporativ idarəetmənin genişləndirilməsi

#### 10.1 Korporativ idarəetmə standartlarının tətbiqinin təşviqi

Korporativ idarəetmə standartlarına müvafiq olaraq Nazirlik tərəfindən dövlət orqanları ilə birlikdə korporativ idarəetmə prinsip və üsullarının təkmilləşdirilməsi, idarəetmənin keyfiyyətinin yüksəldilməsi və müasir korporativ idarəetmə sistemlərinin tətbiq edilməsi ilə bağlı tədbirlər həyata keçirilmişdir. Növbəti mərhələdə Korporativ İdarəetmə Standartlarının tətbiqinin genişləndirilməsi, o cümlədən regionlarda korporativ idarəetmə üzrə maarifləndirmə işlərinin genişləndirilməsi, qabaqcıl korporativ idarəetmə sistemlərinə sahib olan dövlət və özəl müəssisələrin sayının artırılması planlaşdırılır.

#### 10.2 Dövlət müəssisələrində Korporativ idarəetmə standartlarının tətbiqi

Korporativ idarəetmə prinsiplərinin tətbiqi, paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin idarə olunmasında şəffaflığın təmin olunması, rəqabətqabiliyyətli milli iqtisadiyyatın formalaşdırılmasında əhəmiyyətini getdikcə artırmaqdadır. Bu baxımdan Nazirlik tərəfindən hazırlanan paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi, beynəlxalq təcrübə və milli iqtisadiyyatın xüsusiyyətləri nəzərə alınmaqla, səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan səhmdar cəmiyyətlərində korporativ idarəetmə qaydaları və standartları, habelə həmin qaydaların və standartların mərhələlərlə tətbiqinə dair tədbirlər planı və nəticələrə əsaslanan stimullaşdırma mexanizmlərinin təsdiq olunaraq həyata keçirilməsi üzrə sistemli tədbirlər görüləcəkdir.

Dövlət müəssisələri üçün korporativ idarəetmə prinsiplərinin təbliği ilə bağlı seminar, təlim və s. kimi tədbirlərin keçirilməsi, maarifləndirmə işlərinin davam etdirilməsi nəzərdə tutulur.

## 7. Strateji Planın icrasının monitorinqi və qiymətləndirilməsi

### 7.1 Meyarların seçimi

Monitorinq Strateji Planın həyata keçirilməsinin sistemli olaraq müşahidə edilməsi və hesabatların hazırlanmasıdır. Qiymətləndirmə isə Strateji Planda göstərilən hədəflərlə nəticələr əsasında kəmiyyət və keyfiyyət göstəricilərinin müqayisəsi və təhlilidir.

Strateji Plan İllik Fəaliyyət Proqramlarına əsasən icra olunur və Fəaliyyət Proqramlarının icrasına dair hesabatlarla monitorinq olunur. Bu monitorinq əsasında:

- Strateji Plandakı məqsəd və hədəflər arasındakı əlaqələr, onlara çatmaq üçün görülən işlər barəsində hesabat;
- məqsəd və hədəflərə təsir edə biləcək xarici və daxili faktorlar əsasında riskləri təhlil etmə;
- yuxarıda qeyd olunanlara əsaslanaraq qiymətləndirmə aparılır və əldə edilmiş nəticələr növbəti ilin Fəaliyyət Proqramında nəzərə alınır.

Nazirliyin şöbələri Fəaliyyət Proqramında nəzərdə tutulan tədbirləri öz iş planlarına daxil etməklə sistemli icrasını təmin edirlər.

### 7.2 Məlumatların toplanması və hesabatların tərtib edilməsi

Nazirliyin məqsəd və hədəflər üzrə məsul olan strukturları müəyyən dövr ərzində vaxtaşırı məlumatları toplayaraq hesabat şəklində əsas öhdəliyi olan şöbəyə təqdim edirlər. Müvafiq olaraq, toplanmış hesabatlar yuxarı rəhbərliyə təqdim edilir.

Məlumatların toplanması və hesabat formasına gətirilməsi aşağıdakı ardıcıllıqla həyata keçirilir:

1 İllik Fəaliyyət Hesabatı: Növbəti il üçün Fəaliyyət Proqramına dair təkliflərlə birgə cari ilin dekabr ayının 15-dək hazırlanaraq əsas şöbəyə təqdim edilir və yığılmış bütün hesabatlar əsas şöbə tərəfindən təhlil edilərək rəhbərliyə təqdim edilir.

2 Yekun Hesabat: Strateji Planın sonuncu fəaliyyət ilinin 6 ayına qədər olan dövr ərzində əldə edilən müvəffəqiyyətləri, uğurla nəticələnmiş strateji hədəfləri və tamamlanmamış işləri, çətinlikləri, növbəti dövr üçün strateji təklifləri ehtiva edən son hesabat məsul şöbə tərəfindən bütün iştirakçılar cəlb edilməklə tərtib edilir və rəhbərliyə təqdim edilir.